# Azərbaycanın Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlığın perspektivləri müzakirə olunub



Avstriyanın paytaxtı Vyanada işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 6-da Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonq ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanla Parlamentlərarası İttifaq arasında əməkdaşlıqdan məmnunluq ifadə edib. Ötən dövrdə qurum rəsmilərinin, o cümlədən PAİ-nin Baş katibi Martin Çunqonqun ölkəmizə səfərlərinin çox faydalı olduğunu deyən spiker bu beynəlxalq parlament təşkilatının dünya miqyasında parlamentlərarası əlaqələrin qurulmasında və möhkəmlənməsində mühüm rol oynadığını söyləyib. Azərbaycan parlamentinin rəhbəri deyib ki, beynəlxalq parlament qurumları ilə ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq edən Milli Məclis Parlamentlərarası İttifaqla əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verir.

Sahibə Qafarova bildirib ki, Azərbaycan beynəlxalq miqyaslı bir çox forum və sammitlərə, həmçinin PAİ-nin tədbirinə uğurla evsahibliyi edib.

Söhbət zamanı bölgədə yaranmış yeni reallıqlar, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı qələbə, ötən ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanatın icrası istiqamətində ölkəmizdə görülən işlər barədə ətraflı məlumat verilib. Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə təcavüzkar Ermənistana qalib gəldi, 30 il davam edən işğala son qoyaraq ərazi bütövlüyünü təmin etdi. Azərbaycan tərəfinin siyasi iradəsi və ordumuzun rəşadəti sayəsində BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildən kağız üzərində qalan 4 qətnaməsi icra olundu. Hazırda ölkəmiz işğaldan azad etdiyi Qarabağda minalardan təmizləmə, abadlıq və quruculuq işləri aparır, Cənubi Qafqazda davamlı sülhün, sabitliyin və təhlükəsizliyin yaranması istiqamətində mühüm işlər görür. Ermənistan isə təxribatçı əməllərindən əl çəkmir.

Sonra çıxış edən Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq bölgədə sülhün bərpasından məmnunluq duyduğunu vurğulayıb. 2017-ci ildə Azərbaycana etdiyi səfərlə bağlı təəssüratlarını bölüşərək hələ o zaman qaçqın və məcburi köçkünlərlə görüşdüyünü, həmin insanların problemləri ilə tanış olduğunu bildirib.

Milli Məclisin Parlamentlərarası İttifaqda təmsilçiliyini yüksək dəyərləndirən Martin Çunqonq ölkəmizin təşkilatın geosiyasi qruplarından birinə üzv olacağına və bu üzvlüyün səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu ifadə edib. O, Azərbaycan parlamenti ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını deyib. Baş katib Parlamentlərarası İttifaqdakı Azərbaycan nümayəndə heyətinin qurumun komitə iclaslarında iştirakının əhəmiyyətini qeyd edib.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

Azərbaycan.- 2021.-7 sentyabr.- S.3.